ELM HAYKA

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qəzeti

Qüvvət elmdədir,
başqa cür heç kəs
Heç kəsə üstünlük
eyləyə bilməz.
Nizami Gəncəvi

5 № (1196) ✸ Cümə, 09 mart 2018-ci il ✸ Qəzet 1984-cü ildən çıxır ✸ Qiyməti 50 qəpik

Elektron elmin tərkib hissəsi

Milli Terminoloji veb-portalın təqdimat mərasimi keçirilib

Prezident İlham Əliyevin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda müvafiq qurumlar qarşısında mühüm vəzifələr qoyulub. Azərbaycan dilinin öyrənilməsi və təbliği sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı müddəalarla əlaqədar olaraq digər təşkilatlarla yanaşı, AMEA İnformasiya Texnologiyaları İnstitutunda da məqsədyönlü işlər aparılıb, institutun alim və mütəxəssisləri tərəfindən Milli Terminoloji veb-portal hazırlanıb.

Bu məqsədlə AMEA Rəyasət Heyətində www.terminologiya.az ünvanlı Milli Terminoloji veb-portalın təqdimat mərasimi keçirilib. Tədbirdə AMEA-nın elmi-tədqiqat institutlarının alim və mütəxəssisləri, eləcə də KİV nümayəndələri iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli hər bir dövlətin ən vacib atributlarından olan dilin xalqın və ölkənin identikliyi, mədəniyyəti və psixoloji xüsusiyyətlərini özündə əks etdirən bir fenomen olduğunu bildirib. Akademik Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi ilə bağlı ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu nəzərə çatdırıb, inkişafın yeni mərhələsində AR Prezidenti İlham Əliyevin bu siyasəti uğurla davam etdirərək onu təmin edən çoxşaxəli amillərə xüsusi diqqət yetirdiyini söyləyib. AMEA-nın vitse-prezidenti Milli Terminoloji veb-portalın məhz Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi, informasiya cəmiyyətinin bərqərar olunmasına dair dövlət siyasətinin həyata keçirilməsi, eləcə də elmi fəaliyyətin informasiya təminatının gücləndirilməsi məqsədlərinə xidmət etdiyini söyləyib.

Sonra çıxış edən AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev ümummilli lider Heydər Əliyevin dilimizin qorunması və inkişafına hər zaman böyük önəm verdiyini diqqətə çatdırıb. AR Prezidenti İlham Əliyevin AMEA-nın 70 illik yubiley tədbirindəki çıxışında dilimizin saflığının qorunub saxlanılması və inkişaf etdirilməsi məsələlərinə xüsusi yer verdiyini bildirib.

Rasim Əliquliyevin sözlərinə görə, internet texnologiyalarının sürətli inkişafı nəticəsində insanların virtual məkanda mövcud olan informasiya resurslarına çıxış imkanları qeyri-məhdud olduğundan termin yaradıcılığı işlərinin təkcə alim və mütəxəssislər tərəfindən həyata keçirilməsi böyük çətinliklər yaradır. Bu problemin həllində, eyni zamanda terminlərin ictimai müzakirəsi və ekspertizası işlərində marağı olan hər kəs iştirak edə bilər ki, bununla da ölkəmizdə vətəndaş terminologiyası formalaşdırıla bilər.

Milli Terminoloji veb-portal dinamik inkişaf edən, internet mühitində istismar olunan açıq milli informasiya resursu olduğunu qeyd edən akademik Əliquliyev bildirib ki, elektron terminologiya ölkədə formalaşmaqda olan "Elektron Azərbaycan"ın seqmentlərindən biri olan elektron elmin tərkib hissəsidir.

AMEA-nın akademik-katibinin sözlərinə görə, Milli Terminoloji veb-portal terminoloji lüğətləri hazırlamış alim və mütəxəssislərin müəlliflik hüquqlarının qorunması üçün şəffaflıq və əlçatanlılığın təmin olunması nəticəsində geniş imkanlar yaradacaq. Alim sistemin vətəndaşlara elektron terminoloji xidmətlər göstərməklə yanaşı, ölkədə terminologiya fəaliyyətinin təkmilləşdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Daha sonra İnformasiya Texnologiyaları İnstitutunun elmi işçisi Yusif Sadıyev milli terminoloji veb-portalı təqdim edərək onun strukturu və dizaynı haqqında ətraflı məlumat verib. Bildirib ki, www.terminologiya.az (www.azterm.az) adı altında yaradılan veb-portal AR Nazirlər Kabinetinin 4 sentyabr 2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılması və idarə edilməsinə dair Tələblər"ə, o cümlədən AR Xüsusi Dövlət Mühafizə Xidmətinin tələblərinə uyğunlaşdırılıb və təhlükəsizliyi təmin olunub.

Məruzəçi qeyd edib ki, www.terminologiya.az portalı AR Nazirlər Kabineti yanında Terminologiya Komissiyası və onun elmi bölmələrinin fəaliyyətini, terminoloji lüğətlər və Azərbaycan dilinin digər lüğətlərini əks etdirən informasiya bazasına və geniş axtarış imkanlarına malik informasiya resursudur.

Yusif Sadıyev bildirib ki, portalın ən mühüm xüsusiyyətlərindən biri də "İctimai tribuna" bölməsi vasitəsilə Terminologiya Komissiyası və vətəndaşlar arasında onlayn əlaqələrin qurulması imkanının olmasıdır. Bölmədə yeni terminlər və müzakirə üçün mövzu təklif etmək, eləcə də mövcud terminlərə münasibət bildirmək mümkündür.

Sonda müzakirələrdə iştirak edənlər Milli Terminoloji veb-portalın Azərbaycanda terminologiya sahəsində elmi nailiyyətlərin əldə edilməsində mühüm rol oynayacağını bildiriblər.

Zamanın çağırışlarına uyğun

səh. 2-3

Ədalət mütləq yerini tutacaq

səh. 4

Beynəlxalq təcrübə əsasında

səh. 5

Aktual problem araşdırılır

səh. 6

AMEA-nın Naxçıvan Bölməsində

səh. 7

Öz payını müxtəlif millətlərlə bölüşən Bakı

Nizami Kino Mərkəzi və "Ədibin Evi"nin təşkilatçılığı ilə Mir Cəlal Paşayevin 110 illik və Qara Qarayevin 100 illik yubileyləri münasibətilə Azərbaycan mədəniyyətinin bu görkəmli xadimlərinin birgə ərsəyə gətirdiyi "Bir ailə" bədii filminin təqdimat mərasimi keçirilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib.

Filmin nümayişindən əvvəl çıxış edənlər görkəmli ədib, alim, istedadlı pedaqoq Mir Cəlal Paşayevin 110, böyük bəstəkar Qara Qarayevin 100, həmçinin Azərbaycan kinosunun 120 illik yubileylərindən söz açıblar. Bildiriblər ki, "Bir ailə" filmi 2008-ci ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü və Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin köməyi ilə Rusiyadan gətirilmiş, bərpa olunmuş və hazırda Dövlət Film Fondunda saxlanılır. Qeyd olundu ki, filmin çəkilişləri çox çətin dövrdə, İkinci Dünya müharibəsi illərində aparılıb. O zaman sovet rejissorları Qriqori Aleksandrov və Aleksandr İvanov Bakıya gəlmişdilər. Bakı Kinostudiyasında üç film - "Xəzər dənizçiləri" sənədli filmi, "Bir ailə" və "Sualtı qayıq T9" bədii filmləri çəkildi. Əfsuslar olsun ki, bu filmlərin ekranlara çıxmasına qadağa qoyuldu. Sovet arxivlərindən tapılan sənəddə filmə qadağa qoyulması ilə bağlı yazılıb: ""Bir ailə" kinofilmində Böyük Vətən müharibəsi və həmin müharibədə Kommunist Partiyasının rolu kifayət qədər əks olunmayıb"... Səbəb aydındır: Mir Cəlal Paşayev öz ssenarisində göstərirdi ki, müharibənin bütün yükü sadə xalqın üzərinə düşür. O, öz çörək payını da müxtəlif millətlərin Bakıya təxliyə edilmiş nümayəndələri ilə bölüşən Azərbaycan xalqının qonaqpərvərliyindən, fədakarlığından bəhs edirdi. Amma ssenaridə partiya fəallarının mənəviyyat moizələrinə, nitqlərinə yer verilməmişdi...

Sonra filmin nümayişi oldu. 1943-cü ildə Bakı Kinostudiyası tərəfindən çəkilmiş bu film İkinci Dünya müharibəsində faşizm üzərində qazanılan qələbədə Azərbaycan neftinin rolundan və xalqımızın vətənpərvərliyindən bəhs edir. Filmin ssenari müəllifi Mir Cəlal Paşayev, bəstəkarı Qara Qarayev, rejissorları Rza Təhmasib, Mikayıl Məmmədov və Qriqori Aleksandrovdur. Rollarda Xosrov Məlikov, Mərziyyə Davudova, Lyubov Orlova, Hökümə Qurbanova, Mirzə Babayev və digərləri çəkiliblər. Film bəstəkar Qara Qarayevin kinoda ilk işidir.

Təqdimat mərasimində Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə iştirak edib.

Zamanın çağırışlarına uyğun

İsa Həbibbəyli dövlətin təhsil sahəsi ilə bağlı planlarını açıqladı

AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli AzEDU portalının müxbirləri Elmin Nuri və Mirmahmud Kazımoğluya müsahibə verib. Müsahibədə Azərbaycanın təhsil və elmindən, rəhbərlik etdiyi komitənin bu istiqamətdə hazırladığı və gələcəkdə ərsəyə gətirəcəyi qanun layihələrindən danışıb. Müsahibəni oxucularımıza təqdim edirik:

- İsa müəllim, rəhbərlik etdiyiniz komitənin hazırladığı "Peşə təhsili haqqında" qanun layihəsinin parlamentdə ilk oxunuşu oldu. Layihədə nə kimi məqamlara toxunulacaq?

- Milli Məclisin Elm və təhsil komitəsi bu qanun layihəsi üzərində bir ildən çox iş aparıb. Qanun layihəsinin müzakirəsi zamanı həm ölkəmizin mövcud reallıqları, həm də dünya təcrübəsi nəzərdən keçirilib. Nəhayət, sonda Azərbaycan milli təhsil sisteminə uyğun gələn variantı hazırlayıb bir neçə müzakirədən sonra parlamentin plenar iclasına təqdim etdik. Plenar iclasda qanun layihəsinin birinci oxunuşu baş tutdu, müzakirədən keçdi. Birinci oxunuşun qaydalarına uyğun olaraq, deputat həmkarlarımız "Peşə təhsili haqqında" qanun layihəsinə konseptual olaraq qiymət verdilər. Oxunuş zamanı səslənən əsas fikir o oldu ki, bəli, bu qanun zamanın çağırışıdır. Cənab prezidentin bu istiqamətdə apardığı genişmiqyaslı islahatların tənzimlənməsi və inkişaf etdirilməsi üçün çox zəruridir. Bundan başqa, deputatlar qanun layihəsinə aid bir neçə təkliflər də irəli sürdülər. Müəyyən mülahizələri də oldu. O mülahizələr daha çox peşə təhsilində sahibkarlıq fəaliyyətinin təşkili, peşə təhsili pillələrinin daha da təkmilləşməsi ilə əlaqəli məsələlərlə bağlı idi. Biz qaldırılan məsələlər ətrafında hazırda iş aparırıq və bu istiqamətdəki uyğun müddəaları daha da təkmilləşdirib, onlara əlavələr etməklə məşğuluq. Hesab edirəm ki, birinci oxunuşda səsləndirilən mülahizələr qanun layihəsinin daha da təkmilləşdirilməsinə kömək edib. Eyni zamanda, qanun layihəsinin prezidentin təsdiq etdiyi Strateji Yol Xəritəsinin prinsipləri ilə səsləşməsi məsələsinə də yenidən baxılır. Biz Strateji Yol Xəritəsində əks olunan müddəaların "Peşə təhsili haqqında" qanun layihəsində öz əksini tapmasına xüsusi diqqət yetirmişik. Çünki həqiqətən, Strateji Yol Xəritəsi Azərbaycanın bundan sonrakı iqtisadi inkişafını özündə əks etdirir. Həmçinin

peşə təhsili istiqamətindəki irəliləyişin magistral xətlərini də xəritədəki prinsiplərlə uzlaşdırmalıyıq. Biz buna çalışmışıq, amma yenə də ikinci oxunuşa qədər Strateji Yol Xəritəsi və "Peşə təhsili haqqında" qanundakı müddəaları bir daha nəzərdən keçirəcək, təkmilləşdirib zəruri əlavələr edəcəyik. Bu da qanun layihəsinin təkmilləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Düşünürəm ki, biz martın ortalarına qədər Elm və təhsil komitəsində bu layihəni təkmilləşdirib Milli Məclisə təqdim edə biləcəyik. İkinci oxunuşun apreldə olacağını düşünürük.

- Komitədə bu il həm də "Orta ümumtəhsil məktəbləri haqqında" qanun layihəsinin də müzakirəsi gözlənilir. Adıçəkilən qanunun müzakirəsi və ilk oxunuşu nə zaman olacaq?

- Elm və təhsil komitəsi 2018-ci ilin iş planına adıçəkilən qanun layihəsi üzərində işləməyi də daxil edib. İlin birinci yarısında daha çox "Peşə təhsili haqqında" qanun layihəsi üzərində iş aparmaq lazım gəldiyindən, biz digər qanun layihəsinin müzakirələrini ilin ikinci yarısı üçün nəzərdə tutmuşuq. Buna baxmayaraq, Elm və təhsil komitəsinin müəyyən etdiyi peşə təhsili istiqamətindəki irəliləyişin magistral xətlərini də xəritədəki prinsiplərlə uzlaşdırmalıyıq. Biz buna çalışmışıq, amma yenə də ikinci oxunuşa qədər Strateji Yol Xəritəsi və "Peşə təhsili haqqında" qanundakı müddəaları bir daha nəzərdən keçirəcək, təkmilləşdirib zəruri əlavələr edəcəyik. Bu da qanun layihəsinin təkmilləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Düşünürəm ki, biz martın ortalarına qədər Elm və təhsil komitəsində bu layihəni təkmilləşdirib Milli Məclisə təqdim edə biləcəyik. İkinci oxunuşun apreldə olacağını düşünürük.

- Sizcə, qanun layihəsinin qəbulunun zəruriliyini göstərən əsas səbəblər hansılardı?

- Layihədə göstərilən əsas müddəalar 2009-da ildə qəbul olunan "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapıb. Amma o vaxtdan bu yana, ötən 10 ilə yaxın müddətdə Azərbaycan təhsili inkişaf edib, forma və məzmununda böyük dəyişikliklər baş verib, dünyaya inteqrasiya olunub, yeni tipli məktəblər meydana çıxıb. Ona görə də bütün bunların hamısı ayrıca bir qanun layihəsinin hazırlanmasını tələb edir. Biz bu istiqamətdə ilkin hazırlıq işlərinə artıq başlamışıq; dövrü mətbuatı izləyirik, dünya təcrübəsi ilə maraqlanırıq və s. Bunlar ilkin hazırlıq işləridir. Sistemli surətdə işə başlamaq üçün qanunla bağlı işçi qrupunun yaranması və onun konkret fəaliyyətə başlamasına aprelin ikinci yarısından sonra start verməyi düşünürük.

- Maraqlıdır, qanun layihəsində hansı vacib məsələlərə toxunulacaq?

- Təhsillə bağlı bütün qanun layihələrində ilk növbədə təhsil alan və təhsil verənlərin hüquqları öz əksini tapır. Bu qanunda Azərbaycanda müxtəlif orta ümumtəhsil məktəblərinin statusunun daha konkret müəyyənləşdirilməsi ilə əlaqədar müddəalar olacaq.

Bu gün Azərbaycanda gimnaziya, özəl, dövlət orta ümumtəhsil məktəbləri fəaliyyət göstərir. Yeni qanun layihəsində isə bunların statusu müəyyənləşəcək. Bu sənəddə həmçinin müəllim-şagird, müəllim-cəmiyyət münasibətləri öz əksini tapacaq. Bundan əlavə, yeni qanun layihəsində özəl ümumtəhsil məktəblər barədə xüsusi müddəalar olacaq. Onların hər birinin statusu, fəaliyyətinin hüquqi cəhətdən müəyyənləşməsi, vəzifələri konkret şəkildə öz əksini tapmalıdır.

Qanun layihəsində həmçinin, müəllim-şagird, müəllim-şagird-cəmiyyət münasibətləri öz əksini tapacaq. Bundan əlavə, yeni qanun layihəsində özəl ümumtəhsil məktəblər barədə xüsusi müddəalar yer alacaq.

(Davamı 3-cü səhifədə)

Rəsmi xronika

Respublika Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında 3 mart 2018-ci il tarixində sərəncam imzalayıb.

Sərəncama əsasən, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları cari il martın 1-dən orta hesabla 10 faiz artırılır.

Nəzərdə tutulan təşkilatlar arasında Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və aparatı, AMEA Gəncə bölməsinin aparatı, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Bilik Fondu da var.

Vəzifə maaşları artırıldı

Dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev sərəncam imzalayıb.

Sənədə əsasən, sözügedən müəssisə və təşkilatların işçilərinin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılır.

* * *

Dövlət başçısının digər sərəncamı ilə dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin aylıq vəzifə maaşları da 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılır.

Təqaüdlərin məbləği yüksəldi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən, doktorantlar, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələri üçün müəyyən edilmiş təqaüdlərin aylıq məbləği 2018-ci il martın 1-dən 10 faiz artırılıb.

Zamanın çağırışlarına uyğun

(Əvvəli 2-ci səhifədə)

- İsa müəllim, siz eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentisiniz. AMEA-da son beş ildə bir neçə institut və elmi müəssisə yaradıldı. Onların fəaliyyəti sizi nə dərəcədə qane edir?

- Bilirsiniz ki, AMEA-da hazırda da islahatlar gedir. 2013-cü ildən bu yana - akademik Akif Əlizadə prezident seçiləndən sonra islahatlara geniş start verilib. Ölkə başçısının müəyyən etdiyi strateji xətt əsasında akademiya klassik modeli saxlamaqla, lazımı istiqamətdə yeniləşmə, modernləşmə işini həyata keçirir. Bu yöndə bir çox yeni işlər görülüb. Cənab prezidentin xüsusi sərəncamı ilə yaradılan Xüsusi Texnologiyalar Parkı akademiya tarixində tamamilə yeni hadisədir. Bu yüksək texnologiyalı park akademiyada elmi tədqiqatlar sahəsində əldə olunan ən böyük işlərin istehsalata tətbiq olunmasına, innovativ təşəbbüslərin dəstəklənməsinə böyük meydan açır.

Eyni zamanda, AMEA-da Təcrübə Sənaye Zavodunun yaranması da aparılan yeni islahatların bir addımıdır. Artıq AMEA-nın bu zavodunda istehsal olunan məhsullar ölkə bazarında öz yerini tutmağa başlayıb. Həmçinin həmin məhsulların xarici bazarlara çıxışı üçün də yollar axtarılır. Bir çox xarici şirkətlər artıq akademiya zavodunda hazırlanan məhsullar üçün müraciət edib. Həmçinin birgə əməkdaşlıqla bağlı təkliflər də var. Yaxın zamanlarda bu zavodun Azərbaycan cəmiyyətinə gətirdiyi yeniləşmə, tutduğu yol diqqəti geniş mənada cəlb edə biləcək.

Eyni zamanda, son beş ildə AMEA-da müxtəlif bölmələr üzrə bir neçə yeni institut yaradıldı: Elm Tarixi, Qafqazşünaslıq, Molekulyar Biokimya, Biofizika İnstitutları var. Təbiət Tarixi Muzeyi də yenidən qurulub.

Qafqazşünaslıq İnstitutu yeni yaradılan elmi qurum kimi artıq özünü təsdiqlədə bilib. İnstitutun bazasında Azərbaycan elm tarixində ilk dəfə olaraq qafqazşünasların birinci forumu keçirildi. Orada Qafqaz respublikalarından görkəmli alimlərin iştirakı ilə yanaşı, dünyanın müxtəlif ölkələrində yaşayan tanınmış qafqazşünaslar da iştirak edirdilər. Onların materialları forumla bağlı tərtib edilən külliyyatda çap olundu. Bu, Azərbaycan tarixində qafqazşünasların sanballı əsərlərindən ibarət ilk külliyyatdır.

İnstitut bu gün Gürcüstan, Şimali Qafqaz regionlarını, ən əsası isə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı geniş tədqiqatlar aparılır. Məsələlər geosiyasi, dünya qafqazşünaslığı prizmasından öyrənilir. Müxtəlif dilləri - gürcü, erməni, Şimali Qafqazda yaşayan xalqların dillərini bilən mütəxəssislər burada cəmləşib. Azərbaycan üçün taleyüklü məsələlərin daha dərindən öyrənilməsi üçün bu institutun fəaliyyəti çox faydalıdır.

- Bu il Azərbaycan Cümhuriyyətinin yüzillik yubileyidir. Adıçəkilən institut bu istiqamətdə nə kimi işlər görüb?

- Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yüzillik yubileyi ilə əlaqədar, institutda beynəlxalq konfransın keçirilməsinə hazırlıq gedir. Ötən il soyqırımılarla bağlı ingilis dilində vacib kitab çap olundu. Kitabda Azərbaycan alimləri ilə yanaşı, dünyanın müxtəlif yerlərində yaşayan tanınmış qafqazşünasların sanballı məqalələri var. İngilis dilində yazılan kitab Azərbaycan gerçəkliyini, onun həqiqət səsini çatdırmaq üçün böyük mənbədir.

Biz eyni zamanda, yeni yaradılan Elm Tarixi İnstitutunu qeyd etməliyik. Çox səmərəli şəkildə fəaliyyət göstərir. Burada ən qısa zamanda kiçik kollektivlə böyük işlər görülüb. Keçmiş SSRİ zamanı AMEA-ya aid qəbul olunan bütün qərar və sərəncamlar sənədlər, həm ölkəmizdə, həm Moskva və Peterburqda olanlar əldə edilib ölkəmizə gətirilir və üzərində sistemli iş aparılır. Bu materiallar elm və AMEA tarixini daha detallı şəkildə işləyib hazırlamağa, ümumiləşdirməyə imkan verəcək. Bundan başqa, institutda Azərbaycanda dəqiq elmlərin tarixinə aid 5 böyük həcmli monoqrafiya hazırlanır, Azərbaycanda astronomiya, kimya, tibb elmlərinin tarixinə aid ilk dəfədir ki, sistemli, bütün mərhələləri əhatə edən, öyrənən monoqrafiyalar hazırlanır. Bu əsnada görülən işlər artıq bitib. Layihənin ideya rəhbəri AMEA-nın prezidenti akademik Akif Əlizadədir. Elm Tarixi İnstitutunun kollektivi tərəfindən hazırlanan kitablar artıq akademiyanın "Elm" nəşriyyatında çap prosesindədir. Bir ay müddətində bu mükəmməl kitablar çapdan çıxacaq.

- Bəs, gələcəkdə akademiyada hansı yeni institutlar yaradıla bilər?

- AMEA-da yeni yaradılan institutlar, elmi tədqiqat müəssisələri fayda verir, səmərəli çalışır, elmimizin inkişafında onların yeri və mövqeyi aydın şəkildə görünür. Düşünürəm ki, yeni institutlar yaratmaq baxımından AMEA-da aparılan islahatlar artıq öz bəhrəsini verir. Bununla belə, fikrimcə, süni şəkildə institutların yaradılması hər zaman fayda verə bilməz! Ona görə də akademiya yalnız zəruri hallarda, ehtiyac duyulan məqamlarda yeni elmi qurumların yaradılması məsələsinə baxır. Düşünürəm ki, zamanın ortaya çıxardığı yeniliklər, çağırışlara uyğun olaraq gələcəkdə də bu istiqamətdə belə addımlar atıla bilər.

- Sizcə, ali təhsil sistemində tətbiq edilən Boloniya prosesinin çatışmayan cəhətləri hansılardı?

- Hesab edirəm ki, Boloniya sistemi təhsilimizin Avropaya inteqrasiyası baxımından faydalı addımdır. Azərbaycanda gənclər bu yolla gedib dünyanın müxtəlif ölkələrində bir il, bir semestr təhsil alıb, dünya təhsil prosesini görürlər. Həmçinin xarici ölkə tələbələri də Erasmus proqramı çərçivəsində Azərbaycana gəlib burada oxumaqla təhsil sistemimizə inteqrasiya olunurlar. Ali təhsilin dünya standartlarına uyğunlaşması baxımından Boloniya sistemi çox fayda verdi. Amma eyni zamanda, bu sistemlə bağlı tədris proqramlarının müəyyənləşməsində milli və beynəlxalq dəyərlərin, dünya standartlarının balansını düzgün müəyyən etmək lazımdı. Bəzən, belə hallar da müşahidə olunur ki, Boloniya sistemini əsas götürərək daha çox Qərb, dünya standartlarının tətbiqinə çalışırlar. Şübhəsiz, dünya standartlarına meyl təhsilimizin qarşılıqlı şəkildə tanıdılması, vahid təhsil mərkəzinin yaranması üçün çox vacibdir. Təhsildəki dayanıqlıq və davamlı milli dəyərlərin qorunub saxlanması, ölkə ənənələrinin öz əksini tapması da diqqətdən qaçmamalıdır. Elə bir uyğun balans tapılmalıdır ki, burada ön mövqedə Azərbaycan təhsilinin, vətəndaşının milli maraqları, dövlətçilik dəyərləri təmin olunsun, təhsildə dayanıqlı ənənələr qorunub saxlanılsın. Əlbəttə, eyni zamanda, möhkəm əsaslar üzərində dünya, Qərb standartları ilə inteqrasiya da burada öz əksini tapa bilsin. Bu balansı qoruyub gözləmək Azərbaycanda Boloniya sistemi şəraitində ali təhsilin yenidən qurulması üçün vacib məsələlərdən biridir.

- Orta məktəblərdə tətbiq olunun kurikulum sistemi haqqında nə deyə bilərsiz? Sizcə, bu sistem özünü doğrulda bildi?

- Hesab edirəm ki, orta məktəblərdə tətbiq olunan kurikulumlar XXI əsrin başlanğıcında qəbul olunduğu üçün bu məsələyə yenidən baxmağa ehtiyac var. Kurikulum qəbul olunduğu vaxtdan artıq xeyli vaxt keçib. Bu gün artıq kurikulumların hansının daha faydalı, hansında isə nələrin çatışmadığını aydın şəkildə görürük. Çünki proses orta məktəblərin proqramlarında da özünü göstərir. XXI əsrin başlanğıcında - hələ Avropaya yenicə açıldığımız zamanda qəbul olunmuş təhsil kurikulumlara, bugünkü müstəqil dövlətin indiki səviyyəsindən, baxış bucağından baxdıqda, ölkə reallıqlarının, azərbaycançılıq prinsiplərinin, milli-mənəvi dəyərlərin özünə yer qazanması baxımından onlarda müəyyən təkmilləşdirmə işinə ehtiyac olduğunu görürük.

Təhsil Nazirliyi zaman-zaman bu təkmilləşdirmə işini həyata keçirir. Deyim ki, kurikulumla məşğul olan pedaqoqların hamısının eyni fikirdə olmadıqlarını da müşahidə edirəm. Amma zamanın çağırışı ali məktəblərdə olduğu kimi, orta məktəblərdə də milli dövlətçilik maraqlarının, azərbaycançılıq prinsiplərinin dünya standartları ilə balansının yenidən müəyyənləşməsinə ehtiyac olduğunu aydın göstərir.

- Ölkə başçısı bir neçə gün bundan öncə təhsil və elmi işçilərin əməkhaqqılarının artırılması ilə bağlı sərəncamlar imzaladı. Bu barədə nə deyə bilərsiniz?

- Cənab prezident bu günlərdə təhsil və elmi işçilərin fəaliyyətinin stimullaşdırılması ilə bağlı bir sıra zəruri addımlar atdı. İlk olaraq peşə təhsili işçilərinin əməkhaqqılarının artırılması ilə bağlı verilən sərəncam çox böyük əhəmiyyətə malikdir. Peşə təhsili işçilərinin fəaliyyətinin maddi cəhətdən stimullaşdırılması çox vacibdir. Ayrıca olaraq qeyd edim ki, təhsil və elmi işçilərin əməkhaqqılarının artırılması ilə bağlı verilən sərəncam Azərbaycan bu sahədə çalışanlar tərəfindən böyük rəğbətlə qarşılanıb. Bu, dövlət başçısının Azərbaycanın ziyalılarının böyük hissəsinin təmsil olunduğu elm və təhsil sahələrinin inkişafına göstərdiyi qayğı, Azərbaycan alimlərinin, maarifçi ziyalılarının həyat şəraitinin yaxşılaşması üçün atdığı növbəti addımdır. Təhsil ictimaiyyəti və AMEA alimləri bu sərəncamı yüksək qiymətləndirirlər. Dövlətimizin diqqət və qayğısı, taleyüklü məsələ olan elm və təhsildə bu şəxsləri daha məsuliyyətlə, həvəslə işləməyə səfərbər edir.

Eyni zamanda, sərəncamla tələbələrin də təqaüdləri artırıldı. Bu, Azərbaycanın çoxmilli tələbə ordusuna göstərilən qayğı, əslində, Azərbaycanın gələcəyinə hesablanmış uğurla aparılan siyasətin davamıdır. Azərbaycan tələbə gəncliyi, ümumən gənclik öz prezidentinə sadiqdir.

Qarşıdan prezident seçkiləri gəlir. Bütün Azərbaycan xalqı ölkə prezidentinə ürəklə, mütəşəkkil qaydada, daxili bir qürur hissi ilə səs verməyi özünə borc bilir. Azərbaycan tələbə gəncliyi, prezidentimizin fəaliyyətini dəstəkləyir.

Xəbərlər

Mədəni əlaqələr davam edir

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Bakıda Moldova Ədəbiyyatı Günləri çərçivəsində bu ölkənin tanınmış yazıçı və şairləri ilə görüş keçirilib.

Tədbirdə Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli ölkəmizdə Moldovanın Ədəbiyyatı Günlərinin keçirilməsinin əhəmiyyətini vurğulayıb, ölkələrimiz arasında mədəni əlaqələrin davam etdirildiyini söyləyib. İsa Həbibbəyli Azərbaycan-Moldova ədəbi əlaqələrindən söz açıb, iki ölkə arasında dostluq münasibətlərinin bu gün də yüksələn xətlə inkişaf etdiyini söyləyib. Qeyd edilib ki, Azərbaycan yazıçılarının bir sıra əsərləri artıq moldovan dilinə tərcümə olunub və nəşr edilib. Moldova yazıçılarının əsərləri isə Azərbaycan dilinə tərcümə olunub.

Çıxış edənlər hər iki ölkənin uzun illərdir ki, bütün sahələrdə sıx əməkdaşlıq etdiyini bildiriblər.

Görkəmli tədqiqatçı alim

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi, akademik Feyzulla Qasımzadənin 120 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.

Tədbirdə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov və başqaları çıxış edərək Feyzulla Qasımzadənin Azərbaycan ədəbiyyatşünaslığının təşəkkülündə və formalaşmasında yaxından iştirak etdiyini, onun tədqiqatları nəticəsində bir sıra ədəbi-tarixi faktların üzə çıxarılaraq sistemləşdirildiyini söylədilər. Bildirildi ki, ensiklopedik biliyə malik olan alim əsas ədəbi-elmi marağını ilkin mənbələr, əlyazmalar, dövri mətbuat və arxiv materialları əsasında XIX əsr Azərbaycan ədəbiyyatının öyrənilməsinə yönəltmişdi.

Görkəmli tədqiqatçının uzun illik elmi axtarışları nəticəsində "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" dərsliyini ərsəyə gətirdiyini və sözügedən əsərin bu gün də ali məktəblərdə tədris edildiyi diqqətə çatdırıldı. Böyük ədəbiyyatşünaslar nəslinin yetişməsində görkəmli alimin müstəsna xidmətlərindən danışan natiqlər onun 30 elmlər doktoru və 120 elmlər namizədi yetişdirdiyini qeyd etdilər.

Tədbirdə həmçinin professorlar Zaman Əsgərlinin, Tahirə Məmmədin, f.e.d. Məhəmmədəli Mustafayevin, ADPU-nun kafedra müdiri, professor Himalay Qasımovun məruzələri dinlənildi.

Sonda mərhum akademikin qızı Nigar Qasımzadə ailəsi adından atasının xatirəsinə göstərilən ehtirama görə tədbirin təşkilatçıları və iştirakçılarına minnətdarlığını bildirdi.

İnstitutlarımızda

Ümuminstitut seminarı

Riyaziyyat və Mexanika İnstitutunda növbəti ümuminstitut seminarı keçirilib. Seminarı giriş sözü ilə institutun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov açıb. Tədbirdə İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev, AMEA Elm və təhsil idarəsinin rəhbəri, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov və BDU-nun "Riyazi fizika tənlikləri" kafedrasının müdiri, akademik Yusif Məmmədov iştirak ediblər.

Optimal İdarəetmə şöbəsinin baş elmi işçisi, professor Telman Məlikov "Sadə variasiya məsələsi üçün Karl Veyerştrasın zəruri şərtinin gücləndirilməsi və diskret idarəetmə məsələlərində daha güclü optimallıq şərtlərinin alınması" mövzusunda məruzə edib.

Məruzədə sadə variasiya məsələsi üçün Karl Veyerştrasın zəruri şərtinin gücləndirilməsi, güclü ekstremum üçün ikinci tərtib zəruri şərtin alınması, *y*-qabarıq çoxluq anlayışı, geniş mənada nisbi-açıq çoxluq anlayışı, diskret idarəetmə məsələlərində daha güclü optimallıq şərtlərinin alınması və komponentlərə görə tədqiqat üsulunun verilməsi şərh olunub.

Aynurə Cəfərova
RMİ İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, fizika üzrə fəlsəfə doktoru

Yaponiyalı magistr

Yaponiyanın Chiba Texnoloji İnstitutunun magistri Yuto Yasui Fizika İnstitutunda ezamiyyətdədir. İki aylıq ezamiyyətdə məqsəd "Fullerenməsaməli silisium sistemində fotolüminessensiya hadisəsinin tədqiqi" mövzusunda dissertasiya işi ətrafında tədqiqat aparmaqdır. Artıq Yuto Yasui İnnovasiya sektorunda quraşdırılmış müasir cihazlarda İnstitutun alimləri ilə birlikdə ölçmələr aparır.

Ezamiyyətdə olan magistrin dissertasiya mövzusunun rəhbəri Azərbaycan tərəfindən Fizika İnstitutunun İnnovasiya və transfer üzrə direktor müavini, fizika-riyaziyyat elmləri doktoru Ayaz Bayramov, Yaponiya tərəfindən isə Chiba Texnoloji İnstitutunun laboratoriya müdiri, professor Kazuki Vakitadır.

Məryəm Rafaelqızı
Fizika İnstitutunun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri

Elmin inkişafına dəyərli töhfələr vermiş alim

Coğrafiya İnstitutunun təşkilatçılığı ilə coğrafiyaşünas alim, akademik Budaq Budaqovun 90 illiyinə həsr olunan tədbir keçirilib. Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev, Yer Elmləri Bölməsinin akademik-katibi, akademik Fəxrəddin Qədirov, Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Elmin İnkişafı Fondunun icraçı direktoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Elçin Babayev, Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, elmi ictimaiyyət və Budaq Budaqovun ailə üzvləri iştirak ediblər.

Konfransı akademik Fəxrəddin Qədirov açaraq Budaq Budaqovun respublikamızda coğrafiya elminin inkişafına dəyərli töhfələr verdiyini bildirib. Qeyd edib ki, görkəmli alim geomorfologiya, ekologiya, landşaftşünaslıq, toponimika, əhali coğrafiyası, Xəzərin problemləri və digər sahələrdə tədqiqatlar aparıb və onun əldə etdiyi nailiyyətlər bu gün də öz aktuallığını qoruyur. Fəxrəddin Qədirov alimin təkcə respublikada yox, bütün MDB məkanında tanınan geomorfoloqlar, ekocoğrafiyaçılar və landşaftşünaslar məktəbi yaratdığını söyləyib.

Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov Budaq Budaqovun həyat və fəaliyyəti haqqında məruzə ilə çıxış edib. O, Budaq Budaqovun yüksək ensiklopedik biliyə və təfəkkürə, tədqiqatçı bacarığına malik olduğunu, coğrafiya elminin bir çox sahələri üzrə böyük uğurlar qazandığını söyləyib. Bildirib ki, alim Cənubi və Qərbi Azərbaycanda, eləcə də Gürcüstan və Mərkəzi Asiyada olan türk mənşəli adları işləyərək geniş oxucu kütləsinə çatdırıb. Ramiz Məmmədov həmçinin alimin dağlıq ərazilərin ən mühüm təbii dağıdıcı proseslərindən olan sel və sürüşmələri tədqiq etdiyini, sel təhlükəsinə görə Azərbaycanın rayonlaşma sxemini hazırladığını deyib. O, akademikin tədqiqatları nəticəsində ilk dəfə palçıq vulkanlarının irimiqyaslı landşaft və geomorfoloji xəritələrinin tərtib edildiyini söyləyib.

İnstitut direktoru diqqətə çatdırıb ki, alimin rəhbərliyi altında 50-dən çox fəlsəfə və elmlər doktoru hazırlanıb, onun ölkədə və xaricdə 1000-dən çox əsərinin, o cümlədən 30 xəritə-atlas və 40 monoqrafiyası çap olunub.

Tədbirdə, həmçinin akademik Abel Məhərrəmov, BDU-nun kafedra müdiri, professor Tapdıq Həsənov, dramaturq Əmir Pəhləvan və digərləri çıxış edərək alimin coğrafiya elminin inkişafındakı xidmətlərindən danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

Sonda akademikin qızı Sevinc Budaqova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına öz ailəsi adından minnətdarlığını bildirib.

* * *

Akademik Budaq Budaqovun 90 illiyi münasibətilə Coğrafiya İnstitutunun "Azərbaycan coğrafiya elminin inkişafında akademik B.Ə.Budaqovun rolu" adlı yeni kitabı çapdan çıxıb.

Kitab c.ü.e.d. Hüseyn Xəlilovun redaktorluğu ilə "Təhsil" nəşriyyatında işıq üzü görüb. Coğrafiya İnstitutu Təhsil şöbəsinin böyük elmi işçisi, c.ü.f.d. Flora Məmmədova müəlliminə həsr etdiyi monoqrafiyada akademik Budaqovun elmi yaradıcılığının əsas istiqamətlərini (geomorfologiya, landşaftşünaslıq, qlyasiologiya, neotektonika, toponimika, ekologiya) geniş təhlil etmiş, onun Azərbaycan elm və təhsilinin inkişafındakı rolunu ilk dəfə kompleks şəkildə araşdıraraq sistemləşdirmişdir.

Kitab Yer elmləri sahəsində çalışan mütəxəssislər, tədqiqatçılar, universitetlərin müvafiq fakültələrinin müəllim və tələbələri, ümumiyyətlə, elm tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

Ədalət mütləq yerini tutacaq

Azad Həmkarlar İttifaqının və Gənc Alim və Mütəxəssislər Şurasının təşkilatçılığı ilə Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunan tədbir keçirilib. Akademiyanın elmi müəssisə və təşkilatlarının əməkdaşlarının iştirak etdiyi tədbirdə əvvəlcə soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri İttifaqın sədri, hüquq üzrə elmlər doktoru, professor Habil Qurbanov açaraq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən Xocalı şəhərində azərbaycanlılara qarşı dəhşətli soyqırımın törədildiyini söyləyib. Bildirib ki, hazırda Ermənistan elitasında təmsil olunan şəxslərin rəhbərliyi altında Xocalıda qoca, qadın, uşaq fərqi qoyulmadan mülki insanlara amansızcasına divan tutulub. Habil Qurbanov faciə zamanı öldürülən insanların sayının əslində 613-dən yüksək olduğunu, itkin düşmüş şəxslərin erməni cəlladları tərəfindən basdırıldığını deyib.

Alim qətliamın beynəlxalq miqyasda tanınması istiqamətində ölkə başçısı İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında həyata keçirilən işlərdən, o cümlədən "Xocalıya ədalət!" kampaniyasının önəmindən danışıb. AHİ sədri hazırda bir neçə dövlətin parlament səviyyəsində, eləcə də ABŞ-ın 21 ştatının faciəni soyqırım kimi tanıdığını, Avropanın, Asiyanın qabaqcıl dövlətlərində Xocalı faciəsinin qurbanlarına abidələr ucaldıldığını bildirib.

Anım tədbirində həmçinin Arxeologiya və Etnoqrafiya İnstitutunun sektor müdiri, tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərov, Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor Rəna Mirzəzadə, Ədəbiyyat İnstitutunun elmi işçisi Aynurə Paşayeva, Neft və Qaz İnstitutunun böyük elmi işçisi Rəqsanə Əsgərova, Fizika İnstitutunun aparıcı elmi işçisi Rəhim Ələkbərov, İqtisadiyyat İnstitutunun Həmkarlar İttifaqının sədri Tanrıverdi Paşa, Kataliz və Qeyri-üzvü Kimya İnstitutunun Həmkarlar İttifaqının sədri Arif Əfəndi və digərləri çıxış edərək Xocalı soyqırımı barədə xatirələrini bölüşüb, faciənin dünya ictimaiyyətinə çatdırılmasında alimlərin rolunu qeyd ediblər.

Qeyd edək ki, Xocalı soyqırımının ildönümünə həsr olunan tədbirlər Milli Elmlər Akademiyasının bütün institut və təşkilatlarında keçirilmiş, AMEA müəssisələrində işləyən alim və əməkdaşlar paytaxtın Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə güllər düzmüş, ədalətin mütləq yerini tutacağını əminliklə bəyan etmişdirlər.

Elmi Şuranın növbəti iclası

Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Tarix Problemləri üzrə Elmi Şurasının növbəti iclası keçirilib.

İclası şuranın sədri, akademik Şahin Mustafayev açaraq ölkədə tarix elmi sahəsində tədqiq olunan problemlərin aktuallığına və elmi dəyərinə, xüsusilə dissertasiya mövzularının müasir tarix elminin inkişaf tələblərinə cavab verməsinə nəzarətin şuranın fəaliyyətinin əsas istiqamətlərindən biri olduğunu vurğulayıb. Qeyd edilib ki, şura bu sahədə öz fəaliyyətini gücləndirərək tarix elmi qarşısında duran və tədqiqinə ehtiyac yaranan prioritet problemlərin və mövzuların müəyyənləşdirilməsinə diqqəti artırmalı və xüsusilə gənc alimlərə tövsiyələrini bildirməlidir.

Daha sonra "Vətən tarixi", "Ümumi tarix", "Arxeologiya", "Etnoqrafiya və etnologiya", "Beynəlxalq münasibətlər tarixi" ixtisasları üzrə təqdim olunmuş 3-ü elmlər, 17-si fəlsəfə doktorluğu olmaqla 20 dissertasiya mövzusu müzakirə edilib. Onlardan 19-u tövsiyələr edilərək təsdiqlənib, 1 mövzu isə geri qaytarılıb.

Bölmələrin büro iclasları

Humanitar Elmlər Bölməsinin ümumi iclası keçirilib. Tədbirdə akademik İsa Həbibbəyli, bölmə üzvləri, elmi müəssisələrin rəhbərləri, elmi katibləri və aidiyyəti üzrə əməkdaşlar iştirak ediblər.

Elmi-təşkilati məsələlərdən ilk olaraq bölmənin elmi müəssisələrində 2017/18-ci tədris ili üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə dissertantura, elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbulun nəticələri müzakirə olunub. Bu məsələ ilə bağlı çıxış edən akademik İsa Həbibbəyli bildirib ki, dissertasiya mövzularını müəyyənləşdirərkən müasir elmin qarşısında duran əsas tələb və vəzifələr nəzərə alınmalı, eyni zamanda mühüm sosial-iqtisadi və mədəni-mənəvi əhəmiyyət kəsb etməlidir.

Bölmənin akademik-katibi, akademik Teymur Kərimli doktorant və dissertantlara gələcəkdə də müvafiq elmi sahələrin perspektiv inkişafı üçün əhəmiyyətli mövzulara üstünlük verilməsini tövsiyə edib.

Müzakirələrdən sonra bölmə qəbulun nəticələrini təsdiq edib, mövzuların Rəyasət Heyətinə təqdim olunmasını qərara alıb.

İclasda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun yeni strukturunun təsdiqi, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun strukturunda dəyişiklik edilməsi məqsədilə Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması ilə bağlı qərarlar qəbul olunub, bir sıra kadr məsələsinə baxılıb.

* * *

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin iştirakı ilə keçirilən İctimai Elmlər Bölməsinin növbəti ümumi iclasında Bölməyə daxil olan elmi müəssisələrin 2017-2018-ci tədris ili üçün fəlsəfə və elmlər doktorluğu hazırlığı üzrə doktorantura və dissertanturaya qəbulunun nəticələri müzakirə olunub, dissertasiya mövzuları ətrafında fikir mübadiləsi aparılıb. Mövzular seçilərkən müasir elmin qarşısında duran əsas tələb və vəzifələri nəzərə almaq, mühüm sosial-iqtisadi və mədəni-mənəvi əhəmiyyət kəsb edən mövzulara üstünlük vermək və digər bu kimi məsələləri diqqətdə saxlamağın vacibliyi vurğulanıb.

Bölmə müzakirələrdən sonra qəbulun nəticələrini təsdiq edərək mövzuların Rəyasət Heyətinə təqdim olunmasını qərara alıb.

* * *

Biologiya və Tibb Elmləri Bölməsinin növbəti büro iclası keçirilib. İclasda Bölmənin akademik-katibi, akademik Əhliman Əmiraslanov, büro üzvləri, bölmənin tərkibinə daxil olan elmi müəssisələrin rəhbərləri və aidiyyatı məsələlər üzrə dəvət olunmuş əməkdaşlar iştirak ediblər.

Akademik Əhliman Əmiraslanovun giriş sözündən sonra AMEA Rəyasət Heyətinin "Azərbaycan Respublikası Nizami Gəncəvi adına Qızıl medal müsabiqəsi haqqında" və "AMEA-nın adlı mükafatları üzrə müsabiqənin elan edilməsi haqqında" qərarları ilə bağlı müzakirələr aparılıb. Əhliman Əmiraslanov adlı mükafatlar və Qızıl medal üzrə 2018-ci il üçün müsabiqələrin Rəyasət Heyətinin 31 yanvar 2018-ci il tarixli qərarı ilə elan olunduğunu xatırladıb. Natiq vurğulayıb ki, mükafatlara namizədlər AMEA-nın həqiqi və müxbir üzvləri, AMEA-nın elmi bölmələri, elmi-tədqiqat və ali təhsil müəssisələrinin elmi şuraları, elmi cəmiyyətlər, nazirlik və dövlət komitələri yanında fəaliyyət göstərən elmi-texniki şuralar tərəfindən irəli sürülə bilər.

Sonra Bölmənin elmi müəssisələrinin 2018-ci il üzrə elmi-tədqiqat planları müzakirə edilib, Dendrologiya İnstitutu və Mərkəzi Nəbatat Bağının elmi şuralarının tərkiblərində, Genetik Ehtiyatlar İnstitutunun isə strukturunda qismən dəyişiklik edilib.

İclasda həmçinin akademik Vahid Hacıyevin 90, Genetik Ehtiyatlar İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya üzrə elmlər doktoru Naib Əminovun 80, Zoologiya İnstitutunun Tətbiqi zoologiya mərkəzinin müdiri, biologiya üzrə fəlsəfə doktoru Barat Əhmədovun və həmin institutun Quru onurğalıları laboratoriyasının baş elmi işçisi, biologiya üzrə elmlər doktoru Sücəddin Quliyevin 70 illik yubileyləri ilə bağlı müvafiq qərarlar qəbul olunub.

Tədbirdə bölmənin elmi müəssisələrində 2017/2018-ci il üçün fəlsəfə və elmlər doktoru hazırlığı üzrə dissertanturaya, elmlər doktoru hazırlığı üzrə isə doktoranturaya qəbulun nəticələri də müzakirə olunub, bir sıra kadr məsələlərinə baxılıb.

Memorandum müzakirəyə çıxarıldı

Geologiya və Geofizika İnstitutunda təşkil olunan seminarda bu elmi müəssisə ilə "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti arasında imzalanmış memorandum və müqavilə müzakirə edilib.

Şirkətin geoloji-kəşfiyyat şöbəsinin müdiri, geologiya-mineralogiya elmləri üzrə fəlsəfə doktoru Şahbəddin Musayev nəcib və əlvan filiz yataqlarının istismara cəlb olunmasının perspektivləri, həmçinin əməkdaşlıq haqqında fikirlərini bölüşüb.

Elmi seminarda aparılan müzakirələrin və fikir mübadiləsinin nəticəsi olaraq əməkdaşlığın davam etdirilməsi qərara alınıb.

Qeyd edək ki, 2016-cı ilin noyabrında "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə AMEA arasında imzalanan əməkdaşlıq memorandumu Azərbaycan ərazisində mövcud filiz yataqlarının geoloji-geofiziki araşdırılması və digər geoloji məsələlərin tədqiqi, həmçinin bu sahələrdə innovativ layihə və inkişaf proqramlarının həyata keçirilməsi üzrə əməkdaşlığı əhatə edir.

Memorandumda əvvəlcədən müəyyənləşdirilmiş fəaliyyət planına uyğun olaraq cari ilin yanvarında imzalanan müqavilə çərçivəsində Geologiya və Geofizika İnstitutunun alim-mütəxəssisləri konsultant-ekspert statusunda işə cəlb olunublar. Onlar Daşkəsən rayonu ərazisindəki Çovdar filiz emalı sahəsində sulfid filizlərinin kəşfiyyatı və texniki-iqtisadi əsaslandırma layihəsinin hazırlanması, Filizçay kolçedan polimetal yatağı üzrə ilkin qiymətləndirmə sənədinin tərtib edilməsi, Naxçıvan Muxtar Respublikası ərazisindəki Ortakənd sahəsində aparılan kəşfiyyat işlərinə kömək göstərəcəklər.

Beynəlxalq təcrübə əsasında

Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinin təşkilatçılığı ilə akademiyanın elmi müəssisə və təşkilatlarında beynəlxalq əlaqələr üzrə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tədbir keçirilib.

Tədbirdə idarənin rəisi, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva çıxış edərək AMEA-da bu formatda görüşün ilk dəfə baş tutduğunu söyləyib. O, son illər ərzində akademiyanın elmi müəssisə və təşkilatlarının beynəlxalq əlaqələrinin təkmilləşdirilməsi və peşəkarlaşdırılması istiqamətində əməli tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Sonra İnformasiya Texnologiyaları İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, texnika üzrə fəlsəfə doktoru Vüqar Musayev, Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun Beynəlxalq əlaqələr, innovasiyalar və qrant layihələri şöbəsinin müdiri, kimya üzrə fəlsəfə doktoru Ülviyyə Məmmədova, Ədəbiyyat İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Xanım Zairova, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Beynəlxalq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Minaxanım Əliyeva və Hüquq və İnsan Haqları İnstitutunun Təhsil və Beynəlxalq əlaqələr şöbəsinin müdiri

Racıv Qurbanov çıxış edərək təmsil etdikləri qurumların ötən illər ərzində gördükləri işlərdən və beynəlxalq təcrübələrindən danışıblar. Qeyd olunub ki, son illərdə Azərbaycan elminin beynəlxalq elmi mühitə inteqrasiyası, qlobal rəqabət mühitində fəaliyyət, eləcə də multidissiplinar tədqiqatlar və qrant layihələrdə iştirak istiqamətində bir sıra işlər görülüb. Bundan əlavə, bildirilib ki, BMT-nin, Avropa Birliyinin, MDB ölkələrinin elmi təşkilatları ilə, o cümlədən AMEA-nın beynəlxalq əlaqələri və müqavilələri əsasında müştərək proqramlar yerinə yetirilib.

Daha sonra Rəyasət Heyəti aparatının Beynəlxalq Əlaqələr İdarəsinin əməkdaşları - Firuzə Xəlilova, Günay Cəfərova və Məlahət Qurbanova təqdimatla çıxış ediblər.

Sonda beynəlxalq təcrübə və əlaqələrin qurulmasına dair müzakirələr aparılıb.

Xəbərlər

Açıq qapılar günü

Torpaqşünaslıq və Aqrokimya İnstitutunda AMEA-nın Həmkarlar İttifaqı Komitəsi və Gənc Alim Mütəxəssislər Şurasının təşkilatçılığı ilə gənclərin elmi potensialının yüksəldilməsi məqsədi ilə "Açıq qapılar" günü keçirilib. Tədbirdə Bakı Dövlət, Azərbaycan Memarlıq və İnşaat universitetlərinin tələbələri və Hədəf Tədris Mərkəzinin şagirdləri iştirak ediblər.

Tələbələr institutun kitabxanası, Torpaq muzeyi və laboratoriyaları ilə tanış olub, elmi seminarda iştirak ediblər. İnstitutun direktoru, AMEA-nın müxbir üzvü Əlövsət Quliyev rəhbərlik etdiyi müəssisənin tarixi və fəaliyyət istiqamətləri barədə gənclərə məlumat verib. İnstitutun "Torpaqların meliorasiyası" laboratoriyasının rəhbəri Mustafa Mustafayev "Torpaqların şorlaşma prosesi və onlarla mübarizə yolları" adlı məruzə ilə çıxış edib. Alim respublika torpaqlarında şorlaşma və şorakətləşmə proseslərinin yaranma səbəbləri, dərəcələrinə görə areallarının barədə danışıb, onların yaxşılaşdırılması məqsədilə aqromeliorativ və aqrotexniki tədbirlər sistemlərinin tətbiqinin zəruriliyini vurğulayıb.

Sonda ölkə ərazisində şorlaşmış və şorakətləşmiş torpaqlar, onların növləri, yaxşılaşdırılması yollarına dair videoçarx nümayiş olunub.

Beynəlxalq seminar

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Bioadaptasiya laboratoriyasının kiçik elmi işçisi Nərgiz Bayramova İqtisadi Əməkdaşlıq Təşkilatı Elm Fondunun və Karaçi Universitetinin dəstəyi ilə Pakistanda keçirilən Nematalogiya üzrə 5-ci Beynəlxalq təlimdə iştirak edib və Milli Nematoloji Tədqiqat Mərkəzində təcrübə keçib.

Gənc alim seminarlarda Karaçi və Pakistanın digər universitetlərinin, həm də xarici ölkələrdən dəvət almış mütəxəssislərin hematologiyada ən son yenilikləri, nematodların torpaqdan toplanması və diaqnostikası mövzusunda mühazirələrini dinləyib.

Nərgiz Bayramova həmçinin universitetin "Skanerli elektron mikroskop", "DNT sekvenser", "Bitki patologiyası" və b. laboratoriyaları və mərkəzləri ilə tanış olmuş, seminarın son günündə isə İqtisadi Əməkdaşlıq Təşkilatı Elm Fondunun prezidenti, professor Manzoor Hussain Soomro tərəfindən sertifikat və fəxri fərmanla təltif olunmuşdur.

Maraqlı aksiya

Mərkəzi Elmi Kitabxana əməkdaşlarının kitabxana fondlarının zənginləşdirilməsində iştirakını təmin etmək məqsədilə "Evdən kitabxanaya!" adlı aksiya keçirir.

Aksiyada hər əməkdaşın kitabxananın fonduna bir ədəd kitab bağışlaması nəzərdə tutulub. Aksiyanın sonunda toplanılmış kitabların təqdimatı olacaq. Təqdimat mərasimi aprelin 19-da keçiriləcək.

Kitab rəfimizdən

Tarixdə qadının yeri

Oxucular Peyğəmbərimizin sevimli qızı Fatimeyi-Zəhra haqqında daha bir maraqlı kitab əldə etmək imkanı qazanıblar.

Abdullah Əbdüləziz əl-Haşiminin "Fatimeyi-Zəhra. Doğumunun əvvəlindən şəhadətindən sonraya qədər" kitabı Azərbaycan dilində çapdan çıxıb. Əsəri ərəb dilindən AMEA RH İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması İdarəsinin əməkdaşı Hilal Ağamoğlanov tərcümə edib.

368 səhifəlik nəşrdə "Tarixdə qadının yeri", "Zəhranın nuru məxluqlar yaradılmazdan əvvəl mövcud idi", "Fatimeyi-Zəhranın mübarək doğumu", "Həyat yoldaşı Əli ilə birgə sürdüyü ömür", "Zahidliyi, əxlaqı, ibadəti, elmi..." kimi 39 fəsil yer alıb və oxucular hər fəslin yarımbaşlıqları altında Peyğəmbər övladının məziyyətləri çatdırılıb.

Bildirək ki, Fatimeyi-Zəhra haqqında zəngin məlumatlar əks olunan kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəyi ilə "Nurlar" nəşriyyatında çap olunub.

İkicildliyin birincisi

Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədovun baş redaktorluğu ilə "Naxçıvan Muxtar Respublikasının coğrafiyası" ikicildliyinin birinci cildi çapdan çıxıb.

Fiziki coğrafiya cildində zəngin təbii şəraitə və ehtiyatlara malik olan muxtar respublika ərazisinin fiziki coğrafiyasının müxtəlif sahələrini əhatə edən ən son elmi tədqiqatların nəticələrinə dair məlumatlar yer alıb. Fundamental əsərdə Naxçıvan ərazisinin oroqrafiyası, geoloji quruluşu, geomorfologiyası, iqlimi, daxili suları, torpaq və bitki örtüyü, heyvanlar aləmi və landşaftları araşdırılıb, fiziki-coğrafi rayonlaşdırma vahidləri ayrılıb və geniş şərh edilib.

Naxçıvanın fiziki coğrafiyasına aid kompleks məsələləri hərtərəfli işıqlandıran bu monoqrafik əsər dövlət təşkilatlarının mütəxəssisləri, elmi işçilər, ali məktəblərin müəllim-professor heyəti, bakalavr, magistr, doktorantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitabın elmi redaktorları AMEA-nın müxbir üzvü Elbrus Əlizadə və Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevdir. Akademik T.Talıbov, AMEA-nın müxbir üzvləri S.Məhərrəmov və T.Kəngərli, coğrafiya üzrə elmlər doktorları H.Xəlilov və R.Qaşqay, coğrafiya üzrə fəlsəfə doktorları M.Həsənov, N.Bababəyli, S.Tarixazər və İ.Kuçinskaya nəşrin redaksiya heyətinin üzvləridir.

Aktual problem araşdırılır

Akademik Ramiz Məmmədovun sədrliyi ilə Coğrafiya İnstitutu Elmi seminarının növbəti iclası keçirilib. İclasda AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin əməkdaşları - baş direktorun elmi məsələlər üzrə müavini Azay Rzayev və maqnitometriya şöbəsinin böyük elmi işçisi Nadirşah Xanbabayev iştirak ediblər.

İnstitutun Geomorfologiya və təbii risklər şöbəsinin aparıcı elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Sitarə Tarixazər Bayıl yamacının sürüşmə zonasında vəziyyət haqqında məruzə edib. Ərazini tədqiq və dəfələrlə müşahidə edən məruzəçi bildirib ki, burada sakinlərlə görüşmüş, məsələyə münasibətlərini öyrənmiş, eləcə də Səbail rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla mövcud problemlə əlaqədar fikir mübadiləsi aparmışdır.

O, həmçinin qeyd edib ki, son vaxtlar Bakıda tikinti zamanı, konkret olaraq isə Bayıl yamacında ərazinin geoloji-geomorfoloji, mühəndis-geoloji, hidrogeoloji və digər xüsusiyyətlər nəzərə alınmır, nəticədə isə bir müddətdən sonra sürüşmələr yaranır, tikililərdə çatlar və çökmə kimi hallar baş verir. Tədqiqatçı bildirib ki, tikinti zamanı işlər aktiv sürüşmə zonalarının təyini istiqamətində aparılmalı, monitorinq keçirilməlidir. Sürüşmələrin səbəbi relyef, mövcud tektonik qırılmalar, süxurların litoloji tərkibi, yamacların meylliliyi, atmosfer yağıntıları, Xəzər dənizinin tərəddüdü, texnogen sular (kanalizasiya və suvarma), yamacların kəsilməsi, tikinti işləri və s. kimi təbii və antropogen amillərin Bayıl zonasına təsirinin nəzərə alınmamağıdır.

Sitarə Tarixazərin fikrinə görə, əgər yaxın vaxtlarda yeraltı sular sızmasının qarşısı alınması, torpağa olan təzyiqin azalması və burada meşə-park zonasının salınması kimi profilaktik tədbirlər görülərsə, artmaqda olan sürüşmə prosesinin fəallığını minimuma endirmək mümkündür.

Sonra Seysmoloji Xidmət Mərkəzinin əməkdaşları mövzu ilə bağlı çıxış edərək məsələyə münasibət bildiriblər.

Akademik. H. Əliyev adına Coğrafiya İnstitutunun ictimaiyyətlə əlaqələr şöbəsi

Tanınmış arxeoloqun Bakı səfəri

Almaniyanın tanınmış arxeoloqu, professor Harald Hauptmann Azərbaycana səfəri çərçivəsində Arxeologiya və Etnoqrafiya İnstitutunun İçəri şəhərdə yerləşən Elmi ekspozisiya şöbəsinə baş çəkib, burada nümayiş etdirilən maddi mədəniyyət nümunələri ilə tanış olub.

Muzeylə tanışlıqdan sonra professor azərbaycanlı həmkarları ilə neolit və xalkolit dövrü Anadolu, Yaxın Şərq və Cənubi Qafqaz mədəniyyətlərinin əlaqələri, inkişaf xüsusiyyətləri və digər mövzular üzrə fikir mübadiləsi aparıb. Tanışlıq xarakteri daşıyan görüşdə almaniyalı alimi və onun xanımını Azərbaycana dəvət etmiş Türkiyə və Azərbaycan iş adamları və sənayeçilər İctimai Birliyinin sədri Hüseyn Böyükfırat, yazıçı-publisist Atababa İsmayıloğlu, Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi ekspozisiya şöbəsinin müdiri Fərhad Quliyev, Antik dövr arxeologiyası şöbəsinin müdiri Zaur Həsənov, İnstitutun əməkdaşları Valeh Ələkbərov və Orxan Zamanov, həmçinin Qobustan Dövlət tarixi-bədii qoruğunun əməkdaşı Leyla Əliyevə iştirak ediblər.

Qeyd edək ki, professor Harald Hauptmann 1968-ci ildən başlayaraq uzun müddət Türkiyə Cümhuriyyətində Almaniya Arxeologiya İnstitutunun İstanbuldakı şöbəsinin müdiri, Şanlı Urfadakı erkən neolit dövrünə aid (e.ə. IX minillik) Nevalı Çori, Elazığ bölgəsindəki eneolit-tunc-erkən dəmir dövrü Norşuntəpə Höyüğü məskənini aşkar və tədqiq etmiş ekspedisiyaların rəhbəri olmuş, Pakistanın şimal bölgəsində aparılan arxeoloji tədqiqatlara başçılıq etmişdir. Onun Anadolu, Yaxın Şərq, Pakistan, Balkan və Yunanıstanın qədim arxeologiyası üzrə monoqrafiyaları müasir arxeologiyanın əsaslarını təşkil etməkdədir. O, Almaniyanın Heydelberq Universitetinin tarixəqədərki və erkən tarix dövrü professoru, Heydelberq Akademiyasının, Serbiya Elmlər və İncəsənət Akademiyasının həqiqi üzvüdür.

Namizəd yekdilliklə dəstəkləndi

Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurası növbəti iclasını keçirib. İclasın gündəliyinə daxil olan əsas məsələ - 9 fevral 2018-ci il tarixli "Elm" qəzetində dərc olunan elana əsasən institutunun direktoru vəzifəsinə namizədin irəli sürülməsi idi.

İclasın sədri institutunun elmi işlər üzrə direktor müavini, t.ü.e.d. Nəcəf Müseyibli iclası açaraq bildirdi ki, məsələ ilə bağlı Elmi Şuraya bir namizədin sənədləri daxil olub ki, o da Arxeologiya və Etnoqrafiya İnstitutunun hazırkı direktoru, professor Maisə Rəhimovadır.

O, həmçinin bildirdi ki, professor Maisə Rəhimova 14 ildir ki, instituta rəhbərlik edir və bu dövrdə institut akademiyanın qabaqcıl təşkilatların sırasına yüksəlib.

Elmi Şuranın üzvləri, professor Hidayət Cəfərov, professor Nərgiz Quliyeva, Emil Kərimov, Abuzər Ələkbərov, Qüdrət İsmayılzadə, Bəhlul İbrahimli və başqaları bildirdilər ki, professor Maisə Rəhimova institutun inkişafı və tanınması üçün danılmaz işlər görmüş bacarıqlı və təcrübəli rəhbərdir. O, yaşlı arxeoloq və etnoqraf alimlərə göstərdiyi xüsusi münasibətilə gənc alimləri məhz özlərini elmə fəda etməyə stimul verir. Vurğuladılar ki, Maisə Rəhimova Azərbaycanda arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş qədim metalişləmə məmulatlarını elmi analiz etməyi bacaran ilk milli mütəxəssislərdən biridir. Onun rəhbərliyi dövründə institut əməkdaşları elmimizin inkişafının dünyada tanıdılmasında mühüm rol oynamışlar.

Müzakirələrdən sonra gizli səsvermə baş tutdu və Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru vəzifəsinə Maisə Rəhimovanın namizədliyi yekdilliklə dəstəkləndi.

Sonda iclas iştirakçıları bir sıra cari məsələləri müzakirə etdilər.

Arxeologiya və Etnoqrafiya İnstitutunun İctimaiyyətlə əlaqələr şöbəsi

Seminar

Milli Azərbaycan Tarixi Muzeyində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun dəstəyilə mütəmadi olaraq Cümhuriyyət və maarifçilik, multikulturalizm mövzularında tələbə və məktəblilər üçün tədbirlər keçirilir. Növbəti seminar "Azərbaycanda dövlət gənclər siyasəti və AXC-nin xarici siyasəti" mövzusunda baş tutub.

Tədbirdə muzeyin elmi işçiləri - Əli Fərhadov, Bəhman Kərimov, Fuad Ağayev məruzələrlə çıxış ediblər. Həmçinin tədbirdə AXC-nin xarici siyasəti, Qacar İranının Azərbaycan siyasəti, gənclərin Bilik Fondunun dəstəyilə cümhuriyyət, dövlətçilik və milli kimlik mövzusunda maariflənməsi, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" və akademik Ramiz Mehdiyevin elmi redaktoru və ön sözünün müəllifi olduğu "ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919 -1920-ci illər)" kitabları haqqında geniş məlumat verilib.

Seminarda "Azərbaycan Ordusu" qəzetinin hərbi müxbiri Lalə Hüseynova, Səbail rayonu Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Əhməd Ağababayev və digər iştirakçılar da mövzu haqqında çıxış ediblər. Azərbaycan Dillər Universitetinin tələbələri, H.Mahmudbəyov adına Texniki Humanitar Elmlər Liseyinin yuxarı sinif şagirdlərinin də iştirak etdikləri tədbirdə çoxsaylı suallar məruzəçilər tərəfindən ətraflı cavablandırılıb.

Xüsusi buraxılış

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "AMEA Xəbərləri (ictimai elmlər seriyası)" jurnalının xüsusi buraxılışı işıq üzü görüb.

Xüsusi buraxılışda 20-dən artıq yerli və xarici tədqiqatçının AXC tarixi ilə bağlı məqaləsi dərc olunub. Azərbaycan, Fransa, Rusiya, Türkiyə alimlərinin araşdırmalarında müstəqillik ərəfəsində Azərbaycanda daxili və xarici vəziyyət, Cümhuriyyətin elan olunması, AXC dövrünün hərbi-siyasi, sosial-iqtisadi məsələləri, milli hökumətin xarici siyasəti və digər problemlərə toxunulub, yeni arxiv mənbələri elmi dövriyyəyə gətirilib.

Jurnalda Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları - t.ü.f.d. Fərhad Cabbarovun "Cümhuriyyətin iqtisadi siyasətinin bəzi məsələlərinə dair", t.ü.f.d. Səbuhi Əhmədovun "Применение метода "эшелонной войны" в боевых действиях на территории Азербайджана в 1918 году", Emin Dadaşovun "1918-ci il mart hadisələri zamanı Bakı şəhərində dağıdılmış ictimai binaların əks olunduğu fotokolleksiya (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)" adlı məqalələri də yer alıb.

AMEA-nın Naxçıvan Bölməsində

Bölmədə fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının növbəti məşğələsi Azərbaycan dilinin inkişafına həsr olunub.

Çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra dilimizin keçdiyi tarixi inkişaf yoluna nəzər salıb. O, ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi milli dil siyasətindən, dilimizin dövlət dili statusu alması və beynəlxalq səviyyəyə yüksəlməsindən danışıb. Bildirib ki, 1969-cu ildə Bakı Dövlət Universitetinin yaradılmasının 50 illik yubileyində Azərbaycan dilində çıxış edən ulu öndər dilimizin dövlət dili olması tələbi ilə məsələ qaldırıb və 1978-ci ildə Azərbaycan dili dövlət dili kimi Konstitusiyamızın 73-cü maddəsində öz əksini tapıb.

Sonra bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Heydər Əliyev irsində Azərbaycan dilinin inkişafı məsələləri" mövzusunda məruzə ilə çıxış edib. Vurğulayıb ki, ulu öndər 2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" mühüm bir sənəd imzalayıb.

Ə.Quliyev ana dilinə qayğı siyasətini bu gün ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirib. Qeyd edib ki, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü ildə imzaladığı Sərəncam ana dilimizin qorunmasına və inkişafına qayğının ən bariz nümunəsidir. Alim bu siyasətin Naxçıvanda da uğurla davam etdirildiyini, muxtar respublikada "Ana dili" abidəsinin ucaldıldığını, dilimizin inkişafına mühüm töhfə verən "Dədə Qorqud yurdu - Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlas"ı, "Kitabi-Dədə Qorqud" toponimləri" kimi kitabların nəşr edildiyini deyib.

Sonda mövzu ətrafında suallar cavablandırılıb.

* * *

AMEA-nın Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclasında Bölmənin rəhbəri, akademik İsmayıl Hacıyev Bölmə əməkdaşlarının media ilə əlaqələrinin genişləndirilməsi, muxtar respublikanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğu ilə bağlı elmi materialların hazırlanması barəsində danışıb. Akademik elmi tədqiqat işlərində bununla əlaqədar fundamental tədqiqatların aparılmasının, Naxçıvan elminin əsas istiqamətlərindən biri kimi araşdırılmasının vacibliyindən bəhs edib. İs-

mayıl Hacıyev həmçinin 6-8 iyul 2018-ci il tarixlərində keçiriləcək "Naxçıvan: İslam mədəniyyətinin paytaxtı" mövzusunda beynəlxalq konfransın hazırlıq işləri ilə bağlı iştirakçıları məlumatlandırıb, konfransın elmi istiqamətinin müəyyən edilməsi və ictimaiyyətə təqdim edilməsi barədə tapşırıqlar verib.

Sonra bölmənin Bioresurslar İnstitutunun əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru Zülfiyyə Salayevanın "Naxçıvan Muxtar Respublikasının florasında yayılan bəzi geofit bitkilərinin faydalı xüsusiyyətləri" mövzusunda elmi məruzəsi dinlənilib. Məruzəçi Naxçıvan florasında yayılan geofit bitkilərinin öyrənilmə tarixi, yayılması, faydalı xüsusiyyətləri və qorunması haqqında geniş məlumat verib. Bildirilib ki, son illərdə muxtar respublikada yayılan geofit bitkilərin konspekti hazırlanıb və geofitlərin floramızda 23 fəsilə və 53 cinsə aid 211 növünün olduğu müəyyən edilib. Zülfiyyə Salayeva Muxtar Respublikanın "Qırmızı kitab"ına 202 ali sporlu, çılpaqtoxumlu və çiçəkli bitkilərin daxil edildiyini diqqətə çatdırıb.

Gündəliyə çıxarılan digər məsələ bölmədə yeni işə götürülmüş əməkdaşlarının elmi təşkilat müəssisələrinin direktorları, şöbə və laboratoriya müdirləri tərəfindən hamiliyə götürülməsi haqqında olub. Bununla bağlı Bölmənin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Əkrəm Hüseynzadə məlumat verib. O, qeyd edib ki, yeni işə götürülən əməkdaşlara direktorlar nəzarət etməli, şöbə və laboratoriya müdirləri onlarla müvafiq iş aparılmalıdırlar.

Həmçinin iclasda cari ildə keçirilməsi nəzərdə tutulan respublika və bölmə daxili konfranslar haqqında danışılıb, Bölmənin Elmi-təşkilat şöbəsinin müdiri, aqrar elmləri üzrə fəlsəfə doktoru Orxan Bağırov bu barədə məlumat verib. O, cari ildə bölmədə keçirilməsi nəzərdə tutulan tədbirlərin qrafikini heyət üzvlərinin diqqətinə çatdırıb. Orxan Bağırov Bölmənin əməkdaşlarının elmi əsərlərindən ibarət biblioqrafiq göstərici - 2017 kitabının hazırlanması vəziyyəti haqqında görülən işlərdən də danışıb.

Naxçıvan Bölməsinin İnformasiya şöbəsi

Birgə tədbir

AMEA Lənkəran Regional Elmi Mərkəzində Azərbaycan Demokratik Respublikasının 100 illiyinə həsr olunmuş "1918-1920-ci illərdə ADR-İran münasibətləri" mövzusunda Lənkəran Dövlət Universiteti ilə birlikdə elmi seminar keçirilib.

Seminarı giriş sözü ilə Mərkəzin rəhbəri, professor Fərman Quliyev açıb. Mərkəzin elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Mayis Cəfərov və Lənkəran Dövlət Universitetinin dosenti Fəxrəddin Hüseyn məruzələrlə çıxış ediblər.

Sonra universitetin Arxeologiya şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Samir Kərimov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Zaur Məmmədov, Lənkəran Humanitar kollecinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyev, Lənkəran şəhər 9 saylı məktəbin tarix müəllimi Rahim Nuriyev, Ərəstun Xalıqov adına Rvo tam orta məktəbinin tarix müəllimi Həmzağa Rüstəmov mövzu ilə bağlı çıxış ediblər.

Gəncədə elmi seminar-təlim

AMEA-nın Gəncə Bölməsində "Clarivate Analytics" Agentliyi tərəfindən "Beynəlxalq jurnalların nəşrində əsas tələblər" adlı distant elmi seminar-təlim keçirilib.

Agentliyin mütəxəssisi Darya Buxtarova tərəfindən aparılan təlimdə bölmənin əməkdaşları ilə yanaşı, Gəncə Dövlət Universitetinin, Azərbaycan Dövlət Aqrar Universitetinin, Azərbaycan Texnologiya Universitetinin və Gəncə şəhərində fəaliyyət göstərən elmi-tədqiqat institutlarının gənc alim və mütəxəssisləri iştirak edib. Seminarın keçirilməsində məqsəd beynəlxalq elmi jurnallarda məqalələrin dərc olunması üçün tələblər, elmi məqalələrin strukturu, əsas elementləri, elmi istinad və onunla əlaqəli informasiya resursları ilə tanışlıq olub.

Mülki müdafiə ümumxalq işidir

AMEA Şəki Regional Elmi Mərkəzində 1 mart - Beynəlxalq Mülki Müdafiə Günü ilə bağlı tədbir keçirilib.

Tədbirdən əvvəl Mərkəzin Mülki müdafiə ilə bağlı yeni istifadəyə verilmiş otağının açılışı baş tutub. Açılışda Mərkəzin direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Yusif Şükürlü və Şəki şəhər Fövqəladə Hallar Komissiyasının sədr müavini Valeh Ələkbərov iştirak ediblər.

Daha sonra Mərkəzin Mülki Müdafiə Qərargah rəisi, b.ü.f.d. Qüdrət Bəkirov çıxış edərək Mülki Müdafiə Gününün yaranma tarixi və məqsədi haqqında, fövqəladə hal anlayışı, texnogen qəzalar, fərdi mühafizə vasitələri, yanğın, yanğın təhlükəsizliyi, partlayış, zəhərlənmə təhlükəsindən mühafizə olunmağın yolları haqqında ətraflı məlumat verib.

Tədbirdə həmçinin müxtəlif təyinatlı xilasetmə avadanlıqları və fərdi mühafizə vasitələri nümayiş etdirilib.

Qeyd edək ki, 1 mart - Beynəlxalq Mülki Müdafiə Günü münasibətilə AMEA-nın əksər institut və müəssisələrində müvafiq tədbirlər keçirilib.

Yeni nəşrlər

Kitabın təqdimatı

Mərkəzi Elmi Kitabxanada "Türkologiya" jurnalının növbəti seminarı "Məhv edilmiş türkoloji" kitabının təqdimatına və tərcüməsi məsələlərinə həsr olunub.

Jurnalın məsul katibi Elçin İbrahimov bildirib ki, "Məhv edilmiş türkoloji" kitabının əsas müstəsnalığı onun rus dilçi alimləri tərəfindən yazılmasıdır. F.D.Aşnin, V.M.Alpatov, D.M.Nasilov tərəfindən yazılan kitab beş fəsildən ibarətdir. Bu fəsillərdə A.N.Samoyloviçdən, Y.D.Polivanovdan başlayaraq Bəkir Çobanzadə, Əhməd Cavad, Hüseyn Cavidə qədər repressiyaya məruz qalan şəxsiyyətlər haqqında arxiv və istintaq materialları əsasında məlumat verilir. "Məhz bütün bunları nəzərə alaraq kitabın "Türkologiya" jurnalının seminar üzvləri tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq təqdim etməyi qarşımıza məqsəd qoymuşuq", - deyə Elçin İbrahimov bildirib.

O, "Türkologiya" jurnalının nəzdində fəaliyyət göstərən seminarın jurnalın baş redaktoru, akademik Kamal Abdullanın təşəbbüsü ilə təsis edildiyini qeyd edib, seminarın ilk toplantısının da məhz onun moderatorluğu ilə Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr olunduğunu söyləyib. Elçin İbrahimov 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayının əhəmiyyətindən, onun türk dünyasında sonrakı proseslərə təsirindən söz açıb.

"Türkologiya" jurnalının nəzdində yaradılan seminarın əsas məqsədi türkologiya elminin nailiyyət və problemlərini görkəmli türkoloqların iştirakı ilə müzakirə etmək, gənc türkoloqları bu elmin canlı əfsanələri ilə görüşdürmək, türkologiya elminin inkişafına, onun digər elm sahələri ilə əlaqəsinin daha sıx qurulmasına və bu elm sahəsinin şaxələndirilməsinə kömək etməkdir.

Monoqrafiya işıq üzü görüb

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun "Fiziki tədqiqatlar" laboratoriyasının rəhbəri, fizika üzrə fəlsəfə doktoru Məmməd Hüseynəliyevin "Ellipsometrik ölçmələrdən yarımkeçiricinin kritik nöqtələrinin tapılması praktikası" monoqrafiyası nəşr olunub.

Monoqrafiyada spektroskopik ellipsometriyanın nəzəri əsasları verilib, nazik təbəqənin qalınlığının, materialın optik sabitlərinin, səthdə və aralıq qatda komponentlərin faizinin tapılması, həmçinin onun yarımkeçirici qarışıqda (bərk məhlulda) tərkib analizi məsələləri yer alıb.

Yeni nəşrdə ilk dəfə "Graphical Analysis" proqramı tətbiq olunmaqla materialın kritik nöqtələrinin tapılması praktikası həyata keçirilib və bu işin yerinə yetirilməsi metodologiyası PbS nazik təbəqəsi və monokristalı misalında ətraflı şərh olunub.

Monoqrafiya elmi ictimaiyyət və mövzu ilə bağlı maraqlanan tədqiqatçıların istifadəsi üçün nəzərdə tutulub.

“Magistr -2018” müsabiqəsi

AMEA prezidenti, akademik Akif Əlizadənin müvafiq sərəncamına əsasən, akademiyada “Magistr -2018” müsabiqəsi elan olunur. Müsabiqənin keçirilməsində əsas məqsəd AMEA-da magistratura təhsilini daha da təkmilləşdirmək, magistrantların elmi nailiyyətlərinin və yaradıcılıq potensialının artırılmasına dəstək vermək, təhsildə, elmdə yüksək nəticələr göstərən, intellekti və bacarığı ilə fərqlənən istedadlı gəncləri həvəsləndirməkdir.

Müsabiqədə AMEA-nın magistraturasında təhsil alan tələbələr iştirak edə bilərlər. Yekunda ən yüksək nəticə göstərmiş üç magistrant mükafatlandırılacaq. Qaliblərin mükafatlandırılması onların hər birinə müvafiq diplom verilməklə aşağıdakı qaydada aparılacaq:

I yer - 1500 manat;

II yer - 1000 manat;

III yer - 500 manat.

Müsabiqədə iştirak etmək üçün magistrantlar ərizə formasını müəyyən olunmuş qaydada doldurub (ərizələr müvafiq institutun təhsil şöbəsinin rəhbəri və elmi katibi tərəfindən təsdiq olunmalıdır) təhsil aldığı institutun direktorunun müşayiət məktubu ilə birlikdə 2018-ci il aprelin 13-dək AMEA Rəyasət Heyəti aparatının Elm və Təhsil İdarəsinə təqdim etməlidirlər.

İştirakçı ərizələri 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır. Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş saxlanılır. Ərizələr elektron formada (CD və ya DVD) və kağız üzərində təqdim olunmalıdır.

Ünvan: AZ-1143, Bakı, Hüseyn Cavid prospekti, 31.

Tel.: (+994 12) 539 20 35, (+994 12) 537 23 97.

Email: amea.magistratura@gmail.com (elektron məktubda mövzu yerində “Magistr-2018 müsabiqəsi üçün” qeyd olunmalıdır).

İNSTİTUTUN QAPILARI TƏLƏBƏLƏRİN ÜZÜNƏ AÇIQDIR

Bakı Dövlət Universitetinin tələbələrin Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda elmi-təcrübi praktikadadırlar.

Bu gün Azərbaycan təhsili və elmi qarşısında duran əsas vəzifə - təhsilin və elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, ixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanmasının təmin olunmasıdır. Son illər AMEA-da həyata keçirilən islahatların mühüm istiqamətlərindən birini elm və təhsilin inteqrasiyası təşkil edir. Akademiyanın bir sıra institut və təşkilatlarında bəzi ali təhsil müəssisələrinin baza kafedralarının yaradılması, birgə kadr hazırlığına dair əməkdaşlıq memorandumlarının imzalanması, AMEA-da magistratura təhsilinin yaradılması və ildən-ilə genişləndirilməsi, “SABAH” qruplarında təhsil alan tələbələrin AMEA-nın elmi müəssisələrində təcrübə keçməsi və s. kimi ardıcıl tədbirlər həyata keçirilir. Bu istiqamətdə növbəti addım Kataliz və Qeyri-üzvi Kimya İnstitutu tərəfindən atılmışdır.

Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə Bakı Dövlət Universiteti arasındakı əməkdaşlıq müqaviləsinə əsasən, Universitetin Kimya fakültəsinin IV kurs tələbələrindən 75-i institutda 4 ay müddətində mərhələlərlə elmi-təcrübi praktika keçəcəklər. İlkin mərhələdə Azərbaycan və ingilis bölməsindən 30 tələbə laboratoriyalar üzrə bölüşdürülərək hazırda institutda praktikadadırlar.

Tələbələrin ixtisas üzrə təcrübə keçmələrinin məqsədi ali məktəbdə aldıqları nəzəri biliklərin möhkəmləndirilməsi və dərinləşdirilməsi, yeni texnologiyalarla və elmi-tədqiqat üsulları ilə tanış olaraq onları mənimsəməsindən ibarətdir. Tələbələrin institutda olduqları müddətdə laboratoriyalarda aparılan elmi-tədqiqat işləri ilə tanış olmaları və bu proseslərdə bilavasitə iştirakı üçün hər cür şərait yaradılmışdır. Bundan başqa, tələbələr institutdakı müasir cihaz və avadanlıqların iş prinsipi ilə tanış olacaq, ölçmələrdə bilavasitə iştirak edəcəklər və bununla da onlarda elmi-tədqiqat işlərini sərbəst şəkildə yerinə yetirilmə vərdişlərinin formalaşdırılmasının əsası qoyulacaqdır.

Redaksiyamızın poçtundan

Ünvanımıza AMEA İqtisadiyyat İnstitutunun əməkdaşı Əli Ömər oğlu Hüseynovun məktubu daxil olub. Müəllifin qaldırdığı məsələ son zamanlar maraq doğurduğunu, hətta AMEA Rəyasət Heyətinin iclasların birində səslənməsini nəzərə alaraq məktubun mətnini azacıq ixtisarlarla oxucularımızın diqqətinə çatdırırıq.

Çox hörmətli alimlərimiz, diqqətinizə çatdırmaq istərdim ki, Leninqrad Maliyyə-İqtisad İnstitutuna (sonralar Sankt-Peterburq Dövlət İqtisad və Maliyyə Universiteti) qəbul olunmuş və qafqazlılara qarşı olan məlum münasibətlərə baxmayaraq, həmin ali məktəbi fərqlənmə diplomu ilə bitirə bilmişəm. İnflyasiya proseslərinin endogen amillərinə həsr olunmuş namizədlik dissertasiyamı 1996-cı ildə və ekzogen amillərinə həsr olunmuş, 1997 -2000-ci illərdə əyani doktorantı olduğum Sankt-Peterburq Dövlət İqtisad və Maliyyə Universitetinin “İqtisadiyyat tarixi” kafedrasının müdiri E.B.Koritskinin elmi məsləhətçiliyi ilə yerinə yetirilmiş doktorluq dissertasiyamızı isə 08 fevral 2000-ci ildə birinci dəfə orada müdafiə etmişəm (“lehinə” yekdil səs vermə ilə). Bu dissertasiyamı, Sankt-Peterburqun elmi elitasında məşhur A.M.Makovskiy, M.A.Sklyar, xüsusən də Böyük Vətən müharibəsinin qəhrəmanlarından olmuş (barəsində məlumatlar internetdə çoxdur) Beno İzrailoviç Tabaçnikas kimi alimlər də yüksək qiymətləndirmiş və “qeyri-standart” saymışdılar.

Bütün bunlara baxmayaraq Rusiya Ali Attestasiya Komissiyası mənim elmi işimi təsdiqlənmədi və mən doğma Vətənimdə onun təkrar müdafiəsinə nail olmaq üçün birinci müdafiəsindən sonra on yeddi ilə yaxın bir müddətdə min cür əzab-əziyyətlərdən keçməli oldum. Təkrar müdafiə də yekdil “lehinə” səs verilməklə keçdi, lakin nə fayda, doğma Ali Attestasiya Komissiyası da işimi təsdiqlənmir ki, təsdiqlənmir. Bütün bunlar, təbii ki, dissertantları tanınmış və böyük alimlərimizin dissertasiyalarını mütəmadi öyrənmək və öz dissertasiyalarını onlarınkı ilə tutuşdurmaqla təkmilləşdirmək zərurətində qoyur. Amma problem buradadır ki, belə alimlərimizin, xüsusən də böyük alimlərimizin - AMEA-nın həqiqi və müxbir üzvlərinin dissertasiyalarını kitabxanalarda tapmaq, demək olar ki, qeyri-mümkündür.

Böyük alimlərimizin dissertasiyaları bizim üçün həm də ona görə vacibdir ki, “Azərbaycan alimləri: “nominal” (rəsmi) və “real” (elin gözündə) portretləri” mövzusunda, şablonlardan, konyunkturadan (və s.) az da olsa azad, fərqli bir kollektiv monoqrafiya hazırlayırıq. Hər bir alimin də elmi-tədqiqat əsərləri arasında dissertasiyaları xüsusi yer tutur, ən vacib elmi ideyaları, fərziyyələri də əsasən orada cəmləşir, elmi dərəcələr də onlara görə alınır. Bu səbəbdən də onların baza təhsilləri, dissertasiyalarındakı əsas elmi yenilikləri, hətta, işin harada yerinə yetirilib, harada müdafiə olunması çox vacibdir. Vacibdir ona görə ki, bunlarsız onların “portretləri” natamamdır.

Xahiş edirəm, bizim və gənc tədqiqatçıların belə alimlərimizin dissertasiyaları ilə tanış olmaq imkanlarımızda olan çətinliklərin aradan qaldırılması üçün əlinizdən gələni əsirgəməyəsiniz. Məlum olduğu kimi, bunun nəticəsində köçürmə hallarının ola biləcəyi təhlükəsi də artıq sovuşub - “antiplagiat” proqramları ilə qarşısı alınıb. Odur ki, bir daha xahiş edirəm ki, məktubum diqqətsiz qalmasın.

Hörmət, ehtiram və ümidlə.
Əli Hüseynov
26 fevral 2018 il

Elanlar

AMEA Riyaziyyat və Mexanika İnstitutu aşağıda qeyd olunan vakant vəzifələri tutmaq üçün müsabiqə elan edir:

Tətbiqi riyaziyyat şöbəsi:

- baş elmi işçi -1 ştat vahidi;

Qeyri-harmonik analiz şöbəsi:

- aparıcı elmi işçi -1 ştat vahidi,
- kiçik elmi işçi -1 ştat vahidi;

Diferensial tənliklər şöbəsi:

- kiçik elmi işçi -1 ştat vahidi;

Funksiyalar nəzəriyyəsi şöbəsi:

- kiçik elmi işçi -1 ştat vahidi;

Maye və qaz mexanikası şöbəsi:

- kiçik elmi işçi -1 ştat vahidi;

“Siqnalların emalının riyazi problemləri” laboratoriyası:

- laboratoriya müdiri ştat vahidi.

Müsabiqədə riyaziyyat üzrə fəlsəfə doktorları və elmlər doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən 1 ay müddətində aşağıdakı ünvana təqdim edilməlidir:

AZ-1141, Bakı şəhəri, B.Vahabzadə, 9. V mərtəbə, 509-cu otaq,
Telefon: 539-91-92.

AMEA Riyaziyyat və Mexanika İnstitutu

* * *

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağı “Örtülü şəraitdə becərilən bitkilər” laboratoriyasının aparıcı elmi işçisi vəzifəsini tutmaq üçün müsabiqə elan edir.

Müsabiqədə fəlsəfə və elmlər doktoru elmi dərəcəsi və yuxarıda göstərilən elm sahəsində böyük iş təcrübəsi olan elmi işçilər iştirak edə bilərlər.

Sənədlər müsabiqənin müvafiq tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay ərzində aşağıdakı ünvana təqdim edilməlidir:

AZ-1004, Bakı səhəri, Badamdar yolu, 40, Mərkəzi Nəbatat Bağı.
Telefon: (012) 502 -43-21.

Vahid Fərzəliyev
AMEA Mərkəzi Nəbatat Bağının direktoru v.i.e., b.ü.f.d., dosent

Otuz ildən sonra

Qaradağ rayonu ərazisində yerləşən Torağay palçıq vulkanında püskürmə baş verib.

Torağay palçıq vulkanı AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun ərazisinə daxildir. Sonuncu dəfə 1988-ci ildə qeydə alınmaqla vulkan bu günədək 10 dəfə püskürüb.

Redaksiya heyəti:
Akif Əlizadə, İbrahim Quliyev, İsa Həbibbəyli, Tofiq Nağıyev, Dilqəm Tağıyev, Rasim Əliquliyev, Əhliman Əmiraslanov, Qərib Məmmədov, İsmayıl Hacıyev, Fuad Əliyev, Fəxrəddin Qədirov, Teymur Kərimli, Nazim Məmmədov, Nərgiz Axundova

Redaktor: *Zülfüqar İslamoğlu*
Redaktor müavini: *Sədayə Mürsəlova*
Məsul katib: *Qaliya Əliyeva*
Dizayner: *Hilal Ağamoğlanov*
Çapa məsul: *Akif İbişov*

Ünvan: AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi 30.
Azərbaycan MEA Rəyasət Heyətinin binası,
“Elm” qəzetinin redaksiyası
E-mail: elm_qezeti@science.az

Qəzet “Elm” qəzetinin redaksiyasında yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Çapa imzalanmışdır: 07.03.2018-cı il. **Sifariş:** 647 **Tiraj:** 2000

Тайны мастера

Швейцарские ученые сумели подобрать дерево для изготовления скрипок, плотность которого позволяет добиться звучания, сравнимого с творениями великого Страдивари. Достичь такого эффекта удалось благодаря использованию древесных грибов, сообщает газета ***Salzburger Nachrichten.***

На сегодняшний день существует множество теорий, объясняющих тайны мастера. Одни утверждают, что Страдивари рубил деревья в полнолуние, другие предполагают, что он использовал особый лак. Новейшая теория гласит: решающую роль играет плотность дерева.

Когда мастер изготавливал скрипки в итальянском городе Кремона, в Европе подходил к концу 70-летний период долгих зим и холодных летних месяцев. Из-за этого деревья росли медленнее, а плотность древесины была ниже. “Когда дерево растет в неблагоприятных условиях, оно формирует в основном тонкостенные клетки, которые могут проводить большое количество воды, - объясняет исследователь Федеральной научно-исследовательской лаборатории по материаловедению Фрэнсис Шварце. - Чем тоньше стенки клеток, тем меньше плотность древесины”.

Шварцу уже удалось уменьшить плотность кленовой и еловой древесины. Для этого он использовал древесный гриб вида “ксилария длинноногая”. “Этот гриб разрушает толстостенные клетки древесины”, - поясняет Шварце. В результате жизнедеятельности этого гриба остается дерево более низкой плотности. Получаемый материал сравним с древесиной, из которой делал скрипки Страдивари: она очень хорошо проводит звук.

Теперь эксперты намерены научно подтвердить свою



теорию: для этого струны разных скрипок заставляют вибрировать под действием электромагнита. Виброметр измеряет частоту и амплитуду колебаний, что позволит исключить человеческий фактор, который неизбежен в случае, если на скрипке играет человек, отмечают исследователи. В эксперименте примут участие порядка 50 человек, среди которых будут профессиональные скрипачи, звукооператоры и любители классической музыки. Они должны будут определить, звучание какой скрипки лучше: настоящей скрипки Страдивари или новой скрипки “на грибах”.

Справка: *Антонио Страдивари (1644-1737) - итальянский скрипичный мастер. Усовершенствовал технику создания струнных смычковых инструментов. Изготовил более 1100 инструментов: скрипок, виолончелей, альтов. По разным данным, в мире из них сохранилось от 650 до 700 экземпляров.*

Врачи рекомендуют

Ученые Имперского колледжа Лондона и Северо-Западного университета США выяснили, что употребление большого количества соли может быть опасно для людей с гипертензией вне зависимости от того, ведут ли те здоровый образ жизни. Об этом сообщается в пресс-релизе на ***MedicalXpress.***

